"Kris Hədfild "Enterprise"ın trapına ilk addım atan Vilyam Şatnerdən sonra kosmosa səyahət və tədqiqat sahəsində digərlərinə nisbətən çox iş görüb... Hədfildin üç missiya haqqındakı hesabatları olduqca əyləncəli və maraqlıdır, eyni zamanda planetimizə yuxarıdan baxmaqla yaşanan həyəcanı, qorxu hissini olduqca mükəmməl şəkildə izah edir".

Natan Vitlok, *"Toronto Star"*

"Öz xəyallarının ardınca gedən bir insanın əzmkarlığından danışan ruhlandırıcı hekayə... Burada kosmosla bağlı çox maraqlı məlumatlar var ki, onları ancaq orada olmuş biri danışa bilər".

Marta Vorboy, *"Vancouver Sun"*

"Hədfild müasir dövrün əsl qəhrəmanına çevrilməyin yolunu tapdı... Hədfild bir insanın – kanadalı qırıcı-təyyarəçinin şatl kosmik gəmisində iki dəfə uçuşunu, nəhayət, BKS komandiri kimi xidmət etməyinə qədər yüksəlməsini olduqca dramatik, cəzbedici bir yazıçı üslubu ilə çatdırır. Hədfild astronavt olmağı yalnız fiziki şəkildə hansı hissləri keçirməyi ilə deyil, həm də emosional, psixi, fəlsəfi, elmi tərəfləri ilə də təsvir edir. Bu hekayəni adi bir astronavtın təcrübəsi kimi oxumursunuz, Hədfildin hekayəyə insani toxunuşları oxucu üçün xüsusi bir hədiyyədir. Nəticədə, oxucu ulduzlararası təcrübənin əslində nə olduğunu tam təfərrüatı ilə hiss edə bilir. Hədfild bu kitabın səhifələrinə əxlaq, dəyərlər, heyrət, şairanəlik də qatmaqla, ənənəvi "kosmosa səyahət etmiş alim" qəlibindən kənara çıxır. O, oxucunu ruhlandırır, heyrətləndirir və eyni zamanda sevindirir".

Kris Eptinq, *"Huntington Beach Independent"*

"Hədfildin bu kitabında səhifələri maraqla, səbirsizliklə çevirəcək, o biri səhifədə yazılanları oxumaq üçün intizarda qalacaqsınız – xüsusilə də, kosmik səyahətin daha kiçik, qəribə hissələrindən bəhs etdiyi səhifələri. Məsələn, "altı ay qravitasiya sahəsindən kənarda yaşadıqdan sonra yenidən Yerin cazibə sahəsinə daxil olanda üzümdə dərinin ağırlığını belə hiss edə bilirəm" – nə deyirsinizsə deyin, bu, əsl bədiilikdir".

Piter Skouen, *"The Globe and Mail"*




Kris Hədfildin açıq kosmosa çıxışı – *NASA*

Chris Hadfield

# AN ASTRONAUT'S GUIDE TO LIFE ON EARTH

*Sevimli Helenə ithaf edilir.*
*Sənin inamın, dəstəyin və əvəzedilməz*
*köməyin sayəsində arzularım gerçəkləşdi.*

# MÜNDƏRİCAT

Ön söz: Həlli mümkün olmayan tapşırıq ..................... 13

**Birinci hissə – Start öncəsi**

1. Bir ömürlük səyahət ..................... 43
2. Düzgün yanaşın ..................... 63
3. Mənfi düşüncənin gücü ..................... 83
4. Xırdalıqlara diqqət ..................... 115
5. Dünyanın sonuncu insanları ..................... 151
6. Məni başqa daha nə öldürə bilər ..................... 179

**İkinci hissə – Uçuşa doğru**

7. Sakitlik bazası, Qazaxıstan ..................... 207
8. Partlayışdan sonra özünü necə yaxşı hiss etmək olar ... 235
9. Heç kim olmamağa çalışmaq ..................... 267
10. Yerdən kənar həyat ..................... 287
11. Kvadrat astronavt, dairəvi lyuk ..................... 323

**Üçüncü hissə – Yerə qayıdış**

12. Yumşaq eniş ..................... 353
13. Trapla enərək ..................... 381

*Təşəkkürlər* ..................... *404*

*Qeydlər* ..................... *408*

*Oxucu üçün təlimat* ..................... *409*

ÖN SÖZ

# HƏLLİ MÜMKÜN OLMAYAN

# TAPŞIRIQ

Kosmik gəminin illüminatorlarından ötəri olaraq möcüzələri müşahidə edirsən. Hər 92 dəqiqədən bir sanki qat-qat torta bənzəyən yeni bir şəfəq – birinci təbəqəsi narıncı, sonra özünü büruzə verən mavi və nəhayət parlaq, ulduzlarla bəzədilmiş tünd göy. Planetimizin gizli naxışları buradan sanki ovcunun içindəki kimi aydın görünür – səliqəli düzənliklər arasında yüksələn yöndəmsiz dağlar, qar örtüyünə bürünmüş yaşıl meşələr, gümüşü soxulcanlar kimi günəşdə parıldayan dolama çaylar, qırılan yumurta qabığının kövrək parçaları kimi okeanın üzərinə səpələnmiş adalarla əhatə olunmuş qitələr.

Açıq kosmosa ilk dəfə çıxma ərəfəsində şlüzlü kamerada çəkisizlik şəraitində pərvaz edərkən bilirdim ki, daha möhtəşəm bir gözəlliyin astanasındayam. Yer ətrafında saatda 28000 km sürətlə dövr edən gəmiyə bağlı bir vəziyyətdə Kainatın möhtəşəm mənzərəsinin mərkəzində olmağınız üçün açıq kosmosda pərvazlanmaq kifayətdir. Arzuladığım bu anı yaşamaq üçün, demək olar ki, bütün həyatım boyu işlədim. Amma böyük nailiyyətin bir addımlığında olarkən qəribə bir problemlə üzləşdim – son addımı atıb şlüzdən necə çıxım? Lyuk kiçik və yumrudur, mən isə kəmərlərlə sinəmə bərkidilmiş bütün alətlərimlə, kürəyimdə oksigen balonları və elektronika olan nəhəng

bağlama ilə kvadrat formasındayam. Kvadrat formalı astronavt, dairəvi lyuk.

Astronavt olandan bəri açıq kosmosa çıxışı bir film səhnəsi kimi təsəvvür edirdim – təntənəli musiqi çalınır, səs yüksəlir, mən, gözəl bir şəkildə özümü gəmidən açıq kosmosa atmaqla zülmətə bürünmüş sonsuz kosmik fəzaya çıxıram. Amma bu düşündüyüm qədər də romantik olmadı. Mən səbrimi toplayaraq və lyukdan yöndəmsiz şəkildə keçərək, yüksək hisslərdən əl çəkdim və diqqətimi yeknəsəq işlərə yönəltdim – Kainatın qarşısında buxovlanmış buzov kimi peyda olmamaq üçün skafandrımı yırtmamağa və təhlükəsizlik kəmərində dolaşıb qalmamağa çalışdım.

Yalnız azsaylı insanın görə bildiyi dünyanı olduğu kimi görmək üçün başımı qorxa-qorxa yuxarı dartmaqla özümü lyukdan irəliyə doğru itələdim. Kürəyimdə coystik tərəfindən idarə olunan mühərriklər sistemi yerləşən böyük bir çanta var idi. Digər imkanların olmadığı bir şəraitdə sıxılmış azotla işləyən bu mühərriklərdən istifadə etməklə gəmiyə qayıda bilərdim. Fövqəladə vəziyyətlər üçün nəzərdə tutulmuş əvəzedilməz bir vasitə.

Kvadrat formalı astronavt, dairəvi lyuk. Bu mənim bütün həyatımın hekayəsidir. Qapıdan içəri girmək mümkün olmayanda getmək istədiyim yerə necə çatacağımı tapmaq üçün əbədi axtarış. Kağız üzərində karyeram əvvəlcədən müəyyən edilmiş kimi görünür – mühəndis, qırıcı təyyarəçi, sınaqçı pilot, astronavt. Bu, xətkeş kimi hamar olan peşəkar relslərə qədəm qoyan hər kəs üçün tipik bir yoldur. Amma həyatda kağız üzərində olduğu kimi deyil. Həyatda sərt döngələr və çıxılmaz vəziyyətlər olur.